Sivilizasiya,
Bakı Avrasiya Universiteti

Cild 13, №3, 2024 (59)

**UOT 336**

# PUL-BÜDCƏ SİYASƏTİNİN MƏZMUNU VƏ İQTİSADİ İNKİŞAFA TƏSİR MEXANİZMİ

**Nurlana ALLAHMANLI***

Məqalə redaksiyaya daxil olmuşdur: 10 aprel 2024; çapa qəbul edilmişdir: 22 may 2024; online-da çap edilmişdir: 25 iyun 2024.

Received: 10th of April, 2024; accepted: 22th of May, 2024; published online: 25th of June, 2024.

**Açar sözlər:** dövlət büdcəsi, dövlət maliyyəsi, pul, sığorta, kredit, gəlirlər, xərclər

## Giriş

Büdcə, ümumiyyətlə, müvafiq dövlət və hakimiyyət özünüidarəetmə orqanlarının maliyyə sənədidir. Vəzifə və funksiyaların yerinə yetirilməsi üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması büdcə vasitəsilə reallaşır. Məhz bu baxımdan dövlət pul və büdcə siyasətini qarşılıqlı şəkildə qurmaqla, daha doğrusu, prosesin birinin digərini tamamlamasının uğurlu mexanizmlərinin işlənməsi ilə diqqət önünə gəlir. İqtisadiyyatın tənzimlənməsi və idarə olunması, sosial-mədəni tədbirlər planının reallaşması, idarəetmə aparatının, ordunun saxlanması və s. hamısı büdcə vasitəsilə nizamlanır. Ona görə də, dövlətin büdcə və pul siyasətinin qarşılıqlı əlaqəsi, onun problem olaraq öyrənilməsi və bu müstəvidə müxtəlif istiqamətli təhlillərin aparılması xüsusi aktuallıq kəsb edir.

Tədqiqatlarda çox doğru olaraq vurğulanır ki, büdcə dövlətin maliyyə vəziyyətini ifadə edir. Vergi siyasəti bunun əsasında reallaşır. İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi prosesi büdcənin hesabına mümkün olur. Milli gəlirin və Ümumdaxili məhsulun yenidən bölgüsü və bunun dövriyyə mənzərəsi büdcə vasitəsilə reallaşır. Dövlətin formalaşması və inkişafı, nizamlanma prosesi bütün müstəvilərdə büdcə siyasətinin düzgün quruculuğuna bağlanır. İqtisadi və sosial siyasətin reallaşması və bütünlükdə dövlət aparatı büdcə və pul siyasətinin düzgünlüyü ilə dəyər qazanır. Mərkəzləşdirilmiş pul vəsaitləri fondunun yaradılması və idarəolunması dövlət təfəkkürünün fəaliyyətini tənzimləyən mühüm vasitədir. Ümumdaxili məhsulun yenidən bölüşdürülməsi, iqtisadiyyatın dövlət tənzimlənməsi, sosial siyasətin həyata keçirilməsi, gəlirlərin yaradılması, vəsaitlərin uğurlu istifadəsi dövlətin pul və büdcə siyasətinin düzgün qurulmasına bağlanır.

### 1. Dövlət büdcəsi: milli məhsul və milli gəlir

Dövlət büdcəsi bütün kontekstlərdə qarşılıqlı əlaqə, asılılıq və təsir səviyyəsində özünü nümayiş etdirir. İqtisadi münasibətlərin bir hissəsi kimi təsəvvür edilən maliyyə

**doktorant, Akademia WSB*
*e-mail:* m.allahmanli@mail.ru

də bura daxildir. Bütün münasibətlər dövlət büdcəsindəki gəlir və xərclərin ümumi nəticəsi və bir-biri ilə bağlılığı əsasında həyata keçirilir. Göründüyü kimi, bütünlükdə büdcə münasibətləri dövlətlə müxtəlif müəssisə, idarə, sosial sfera arasında əlaqələri ifadə edir və onun göstəricisidir. "Elə bu məqsədlə dövlət pul vəsaitləri fondlarını yaratmaq məcburiyyətində qalır və müəyyən dairələrdə lazımi işləri aparmaqdan ötrü pul vasitələri fondlarından istifadə etməli olur. Bu mənada dövlət büdcəsi dövlətin dayağı, möhkəm təminatı, müdafiəçisi və etibarlı söykənəcəyidir. Aydın məsələdir ki, əksər problemlərin həlli, toplanan pul vəsaitlərinin qədərindən asılıdır. Belə ki, iqtisadiyyatın inkişafı və tərəqqisi bununla şərtlənir, nəticə etibarilə ondan asılıdır. Maddi imkan olmadan cəmiyyət öz qarşısında qoyduğu ən adi məsələni həll edə bilmir. İqtisadiyyatın iqtisadi cəhətdən tənzimlənməsi mexanizmi – halqası sayılan dövlət büdcəsi əslində hökumətin sərəncamında olan iri mərkəzləşdirilmiş pul fondu kassasından başqa bir şey deyildir" (5, s. 521). Bütün müəssisələr iriliyindən və kiçikliyindən asılı olmayaraq, dövlətin müəyyənləşdirdiyi maliyyə siyasəti, pul, büdcə mexanizmlərinin inkişaf dinamikasının düzgün qurulması əsasında özünü göstərir. Dövlət büdcəsi milli məhsul və milli gəlir timsalında olanların hamısında özünü göstərməklə, həm də onun bölüşdürülməsi və yenidən bölünməsində fəal tərəf kimi iştirak edir, daha doğrusu istiqamətverici rolunu oynayır.

Təsadüfi deyildir ki, büdcə sistemini iqtisadi-nəzəri fikrin görkəmli nümayəndələri Ə.Ələkbərov (2), Z.Vəliyev (7), R.Muradov (6), M.Baboyev (8), T.Brayçeva (9), E.Veduta (10), D.Gorodetsky (11), V.Zaborodina (12) mürəkkəb mexanizm kimi təqdim edirlər. Ölkə iqtisadiyyatının tənzimlənməsi qüdrətli alət və vasitə kimi büdcəyə bağlanır. İqtisadi yüksəlişin təminatı və nizamı büdcə, pul siyasətinin düzgün aparılması ilə reallaşaraq, uğurlu prosesə istiqamət verir. Ölkənin maliyyə planı və proqramı kimi xarakterizə olunan büdcə uğurlu siyasətin yeridilməsi sayəsində qarşılıqlı münasibətləri, iqtisadi sferada canlanmaları bir tərəf olaraq şərtləndirir. Müxtəlif mülkiyyət formalarının yaranması və formalaşma mexanizmi əlavə subyektlərin ortaya çıxması üçün əsas olur. Əlaqələrin miqyası təkcə ölkə daxili səviyyəsində məhdudlaşmır, burada beynəlxalq miqyasın da bir tərəf olaraq təmsili özünü göstərir.

Bir məsələni xüsusi olaraq qeyd etmək lazımdır ki, cəmiyyətdə yerinə yetirilməli olan rəngarəng işlər və həyata keçirilməli olan tədbir, məsələ və layihələr, nə varsa hamısı pulun hərəkətini zəruriləşdirir, daha doğrusu, pul dövr edir. Beləliklə, ölkədə alğı-satqı prosesləri təbii axarda başlayır. Bütün bunlar isə büdcə nəzarətini qaçılmaz edir. Çünki prosesin gedişinə nəzarət olunmadan onun qiymətləndirilməsi, uğur və geriləmələri, dinamikanın təşkili xeyli müşkülə çevrilir. Ümumiyyətlə, dövlət büdcəsində gəlirlərin əsas hissəsini vergi və rüsumlar təşkil edir. Bəzi ölkələrdə ümumi qanunauyğunluqlar sırasında fərqlənmələr də müşahidə olunur.

Büdcədə digər mühüm məsələ xərclər fazası ilə bağlıdır və burada gəlirlərin yenidən bölgüsü həyata keçirilir və prosesin təkrarlanması, eyni zamanda sonrakı mərhələdə işin gedişi üçün funksional məzmun daşıyır. Ümumiyyətlə, büdcə gəlirləri xərclənmə baxımından fərqliliklərlə müşayiət olunur. Bu isə bir istiqamətdə maliyyələşdirmənin aparılması ilə faktlaşır. İqtisadi cəhətdən uzlaşdırmalar bu prosesdə aparıcı məzmun daşıyır. Burada qeyri-iqtisadi sahələrə yönəlmələr də olur. Bu isə özlüyündə pulun havaya sovurulması təsəvvürü yaradır və onun qarşısını almaq özü problem olaraq nəzər-diqqəti cəlb edir. Əhalinin zəruri ehtiyaclarının ixtisara düşməsi məhz bu vəziyyətlərdə baş verir.

Büdcəyə daxilolmalar vergi baxımından müxtəlifliklərlə özünü göstərir və müəyyən mənada ölkənin iqtisadi inkişaf göstəricisinə bağlanır. Prosesdə baş verən yeniliklər də burada təsir funksiyası yerinə yetirmək imkanı qazanır. Məsələn, bütün

vergi ödəyiciliyində xarici investisiyalı vergi ödəyicilərinin xüsusi çəkisi üzərində aparılan məsələ bunun örnəyidir. Azərbaycanda bunun illər üzrə vəziyyətinə diqqət yetirdikdə ciddi fərqliliklər müşahidə olunur.

Dünya təcrübəsində özünü göstərən məsələlərdən biri xərclərin gəlirləri üstələməsidir. Bu müstəvidə müəyyən tədbirlər paketi hazırlansa da, yenə eyni vəziyyət özünü göstərir və xərclərin gəlirləri üstələməsi müşahidə olunur. Burada digər xətt büdcə gəlirlərinin artırılması baxımından görülən işlərdir və bu daha çox vergi çoxalması ilə müşahidə olunur. Burada büdcə kəsirləri məsələsi də var və dünya ölkələrinin nəzərə çarpan təcrübəsi büdcə mədaxilinin azlığı və çoxluğu daxili məhsulun kəmiyyət nisbətinə görə hesablanır. Dünya ölkələrində bu nisbətin mənzərəsi özü də fərqliliklərə yol açır. Prosesin dinamik axarı tərəqqiyə, işin uğurlu aparılması və idarə olunması prosesinə bağlanır.

Azərbaycan respublikasının sosial inkişaf proqnozu və dövlət büdcəsinin hazırlanması layihəsi ətrafında aparılan təhlillər Ə.Ələkbərov (2), Z.Vəliyev (7), X.Alıyev (1), R.Əliyev (3), R.Muradovun (6) müxtəlif illərdə fərqli mənzərənin gediş spektrlərini diqqət önünə gətirir. Məsələn, təhsil, elm, səhiyyə sahəsində fəaliyyət göstərən müəssisələrin özünümaliyyələşdirmə sisteminə keçid proqramı hazırlamaq haqqındakı fəaliyyəti bunun nümunəsidir. Burada yeni əlavə gəlir mənbələrinin axtarılması və öz ehtiyaclarının qismən ödənməsi vacib məsələ olaraq vurğulanır. Bu cür işlərə qərar verilməsi isə cüzi geriləmələrin qarşısının alınmasına heç də təsirsiz qalmadı.

Onu da əlavə edək ki, Dövlət Statistika komitəsinin apardığı müşahidələr sənaye, kənd təsərrüfatı sahəsində artımın bəzən 20-25 %-lə müşahidə olunduğunu deyir. Misal üçün 1990-1997-ci illər, eləcə də sonrakı illərin artım tempi bunun göstəricisidir. Büdcənin gəlirlər bölməsində birbaşa vergilər və dolayısı ilə yığılan vergilər ümumi çəkinin artımı üçün əsas olur. Sosial sahəyə artırılan xərclər bunun tipik göstəricisidir. Xalq mülkiyyətinin dağıdılması vəziyyətinin aradan qaldırılması və ondan uğurlu şəkildə yararlanma büdcə gəlirlərinin artımına imkanlar yaradır. Dövlət əmlakının xüsusiləşdirilməsi sahəsində gedən proseslər bunun göstəricisidir. Özəlləşdirmə adı altında gedən prosesdəki etinasızlıqlar bunun göstəricisidir.

Büdcə xərcləri bölməsində mühüm bir hissəni sosial xərclər təşkil edir. Sosial xərclər sahəsində dövlətin həyata keçirdiyi layihələr iqtisadi sahədə problemlərin ödənilməsinə, respublikada rifah halının yüksəldilməsinə xidmət edir. Etiraf edək ki, respublikanın böyük quruculuq işlərində ilk addımlarda müəyyən etinasızlıqların nəticəsi olaraq sui-istifadələr nəticəsində ümumxalq (eləcə də dövlət) mülkiyyətinin xüsusiləşdirilməsində yanlışlıqlar da özünü göstərmişdir. Özəlləşdirmə adı altında büdcəyə daxil olan vəsait (1999) təxminən 280 milyard manatı əhatə edir. Bu isə gedən prosesin ümumi məzmununu sərgiləyir. Mütəxəssislərin qənaətinə görə, bu ümumi gəlirin 50-100 dəfə azaldılması ilə müşayiət olunur. Belə bir vəziyyət isə heç şübhəsiz büdcəyə öz təsirini göstərir. Özəlləşmə adı ilə baş verən prosesdə olan yayınmalar və digər bu cür hallar büdcənin formalaşmasına təsir edən amillərdir. Ümumiyyətlə, "gəlirlərin yenidən bölgüsünün dövlət siyasəti, bir tərəfdən, vergi qoymadan, digər tərəfdən isə transferlər sistemindən istifadəsini nəzərdə tutur. Qeyd olunmalıdır ki, yenidən bölgü həm məqsədyönlü, həm də bilməyərək aparıla bilir. Məqsədyönlü yenidən bölgü mütərəqqi gəlir vergisi dərəcəsindən istifadəni, kapitallara vergi qoymanı və aztəminatlı fərdlərə müavinət ödənilməsini nəzərdə tutur. Bilməyərəkdən yenidən bölgü büdcə gəlirlərinin artırılması məqsədilə vergi tətbiqi, məsələn, əmtəələrə aksiz qoyulması nəticəsində müxtəlif gəlir səviyyəli fərdlərin həmin verginin ödənilməsində müxtəlif dərəcədə istirakı zamanı yaranır. Digər tərəfdən, ictimai nemətlərin yaranmasına sərf olunan daha aşağı səviyyəli vergilər ödəyən yoxsul fərdlər ictimai nemətlərdən istifadədən, məsələn

pulsuz səhiyyə və təhsildən bir qayda olaraq daha çox faydalılıq əldə edirlər" (9, s. 567-568). Büdcədə gəlirlərin yaradılması və istifadəsi ilə bağlı iqtisadi fikrin görkəmli nümayəndələri müxtəlif səviyyəli sistemli təhlillər aparmış və öz tövsiyə və qənaətlərini ortaya qoymuşlar. Daha doğrusu, dövlətin pul və büdcə siyasətinin mexanizmlərinin müxtəlif kontekstlərdə təhlil etmişlər. M.Vəliyev, Ş.Adıgözəlov, X.Alıyev, Ə.Ələkbərov, R.Əliyev, T.Əliyeva, R.Əsgərova, R.Muradov və digərləri Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünü idarəetmə orqanlarının ümumi fəaliyyət sistemində büdcə və pul siyasətinin qarşılıqlı əlaqəsi ilə bağlı fundamental təhlillər aparmaqla mahiyyəti aydınlaşdırmağa çalışmışlar. Bütün təhlillər dövlətin pul və büdcə siyasətinin qarşılıqlı əlaqəsinin aktuallıq mənzərəsini səciyyələndirir.

Dövlətin pul və büdcə siyasəti dayanıqlı inkişafın dinamik xarakterinə, iqtisadiyyatda böyük həcmdə kapital qoyuluşlarına, baş verən dəyişikliklər kontekstində dəyişikliklər səviyyəsində prosesin gedişinə, tənəzzül, böhran və artım prosesinin izlənməsinə həssaslıq nümayiş etdirir. Ölçülüb-biçilməmiş, real vəziyyətə uyğun tərtib olunmayan, həm də şişirdilmiş sosial proqramlar, istehsal itkiləri və s. bütün parametrlərdə həssaslıq nümayiş etdirir. Azərbaycan dövlət büdcəsinin müstəqillikdən üzü bu yana olanları prosesin dinamik xarakterini, spesifikasını aydınlaşdırmaq baxımından müqayisəli təhlillər üçün həm gərəkli, həm də lazımi material verir. Bütün bunlar tipoloji yanaşmalarda pul və vergi siyasətinin sistemli təhlil, real mənzərənin qiymətləndirməsi, həm də uğurlu qənaətlərin əldə olunması baxımından müsbət təsəvvür formalaşdırır.

## 2. Dövlət büdcəsi: gəlir və xərclər

Büdcə gəlirlərinin formalaşması baxımından gedən proseslər son dövrlərdə bütün qüsurların aradan qaldırılmasına və nəzarətin yüksək səviyyədə həyata keçirilməsinə istiqamətlənir. Keçid iqtisadiyyatında nəzərə çarpan çatışmazlıq gizli iqtisadiyyatın daha geniş bir şəkildə özünü göstərməsinə əsas olur. Ümumiyyətlə, dövlətin bir illik gəlir və xərclər balansı bütün parametrlərdə (hər iki qütbdə) pulla ifadəsini tapır. Məsələn, 1999-cu ildə ÜDM 18,6 trilyon manat olduğu halda, 2020-ci ildə 72 milyard 432 milyon manat olmuşdur. Bu isə özlüyündə böyük inkişaf dinamikasını müəyyənləşdirir. Ancaq 2019-cu ilin ümumi daxili məhsulu ilə əlaqədar 2020-ci ildə azalmalar müşahidə olunur ki, bu da pandemiyanın vurduğu zərərə bağlanır. 2019-cu ilə nisbətən azalma 4,3% faizlə müşahidə olunmuşdur. Məsələn, Dövlət Statistika komitəsinin verdiyi bilgiyə görə hesabat dövründə "qeyri-neft sahəsində ümumi daxili məhsul 2,6% azalaraq 50792, 5 milyon manatı əhatə etmişdir. Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul 7262,8 manata bərabər olub və bu da 1919-cu ilin eyni dövrü ilə müqayisədə 5% azalmanı əks etdirmişdir.

2022-ci ilin yanvar-iyul ayının statistikasına diqqət yetirdikdə artım və ölkənin iqtisadi inkişafının ümumi mənzərəsi fərqli bir dinamikanı müəyyənləşdirir. Məsələn, deyilən müddətdə ölkədə 74155,2 milyon manatlıq və əvvəlki eyni dövr ilə müqayisədə 6,2 % ümumi daxili məhsulun artımı özünü göstərmişdir. Neft-qaz sahəsində əlavə dəyər 0,4 % azalma müşahidə olunmuşsa, qeyri neft-qaz sektorunda 9,9 % artım olmuşdur. Ümumi daxili məhsul istehsalının 52,9 %-i sənaye, 7,7 %-i ticarət, 6 %-i nəqliyyat və anbar təsərrüfatı, 5 %-faizi kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, 3,8 %-i tikinti, 1,4 %-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,3 %-i informasiya və rabitə, 14,3 %-i digər sahələrin payına düşür məhsula və idxala xalis vergi ümumi daxili məhsulun 7,6 %-ini təşkil etmişdir. Bütün bu müqayisələr vergi və büdcə məsələsinin mahiyyətini bir bütöv olaraq faktlaşdırır.

Dövlət büdcəsinin gəlir və xərcləri, iqtisadiyyata yönəldilən investisiyalar, pul kredit statistikası, ödəniş sisteminin statistikası, kredit təşkilatının göstəriciləri və s.

bütün parametrləri ilə büdcənin ümumi xarakterini, onun spesifiklik mənzərəsini şərtləndirir. Azərbaycan respublikasının yerli özünüidarəetmə orqanlarının müvafiq qanunvericilik aktları dövlət büdcəsinə daxil olmalar vergi, rüsum və digər ödənişlərlə şərtlənir. Büdcə gəlirləri bütün məzmunu ilə işin düzgün təşkilinə əsaslanır. Qanunvericilikdə nəzərdə tutulan tələbatı ödəmək, əsasən ayrılan vəsaitlər büdcə xərcləri ilə müəyyənləşir. Büdcə gəlirləri, büdcə xərcləri, kreditin qoyuluşu, manatın məzənnəsi, əhalinin əmanətləri, birbaşa investisiyalar və s. iqtisadi inkişafın təsir mexanizmi olaraq pul-büdcə siyasətinin dinamikasını müəyyənləşdirir.

Fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin gəlir vergisi, torpaq vergisi, əlavə gəlir vergisi, əmlak vergisi, sadələşmiş vergi, aksiz, yol vergisi, xarici iqtisadi fəaliyyətlə bağlı vergilər və s. 2020, 2021, 2022-ci illər üzrə mənzərə 26077,09 (2020), 26631, 7 (2021), 30940, 07 (2022) və s. dövlət büdcəsinin gəlir mənzərəsini müəyyənləşdirir. Xərclərə gəldikdə isə bunun ümumi dinamikası aşağıdakı kimi özünü göstərir:

Xərclərin cəmi 2020-ci il üzrə 26416,3, 2021-ci il üzrə 27422,4, 2022-ci il üzrə isə 32063,1 üzrə ifadəsini tapmışdır. Bunlar isə ümumdövlət xidmətləri, müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq, təhsil, səhiyyə və sosial müdafiə və təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, mənzil və kommunal təsərrüfatı, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, iqtisadi fəaliyyət və s. sahələri əhatələyir. “Aydındır ki, büdcə kəsiri ağır problemdir, onun yaranması büdcənin gəlir və xərclər arasındakı nisbətin pozulması ilə müəyyən olunur. Daha aydın desək hər hansı bir ölkənin xərclərinə nisbətən gəlirlərinin azlığı və ya çoxluğunun nəticəsində yaranır. Sözsüz ki, büdcə mexanizmi özlüyündə gəlirlər və xərclər arasında balanslaşdırma olmasını tələb edir. Buna baxmayaraq, dünya təcrübəsi göstərir ki, əksər ölkələr üzrə balanslaşdırma nisbəti pozulur, xərclər gəlirləri ötür, büdcədə kəsir yaranır. Maraqlı isə kəsiri yaradan xərclərin hansı dairələrə aid olması və necə baş verməsidir. Əlbəttə, burada müxtəlif səbəblər rol oynaya bilər. Ölkələr üçün büdcədə baş verən kəsiri həm oxşar, həm də xüsusi fərqləndirici cəhətlərlə izah etmək olar. Bilirik ki, məsələn, müəyyən şərait üzündən əgər dövlətin iqtisadi, siyasi, sosial və s. dairələrdə fəaliyyəti genişlənirsə, təbii ki xərclər də buna müvafiq olaraq artacaqdır. Dövlət aparatının böyük-kiçikliyi ölkənin hərbi və ya xüsusi fövqəladə vəziyyətdə olması, ölkədə baş verən təbii fəlakət, zəlzələ və s. xərclərin artması ilə müşayiət olunur” (5, s. 530). Bütün bunlar və bu kimi səbəblər büdcədə gəlir və xərclər balansının pozulmasına səbəb olur. Məsələn, bizə yaxın olan zamanın pandemiya mərhələsinin (2020) törətdiyi fəsadlar bunun nümunəsidir. Onu da əlavə edək ki, bu təkcə Azərbaycan timsalında deyil, bütünlükdə dünya xalqları səviyyəsində olan hadisə kimi dünya ölkələrində böhrana, infilyasiyaya yol açdı. Ondan çıxış və əvvəlki dönəmin ümumi mənzərəsini bərpa isə bir qədər ağır və çətinliklə müşahidə olunan məsələdir. İqtisadiyyatda dalğalanmalara yol açan bu və bu kimi hadisələr gəlir və xərclər balansının pozulmasını əsas edir. Və yaxud da 44 günlük müharibə adı ilə tarixə düşən ikinci Qarabağ savaşı, şübhəsiz büdcədə gəlir və xərclər balansına öz təsirini göstərərək, xərclərin artmasına təsir etdi. Eləcə də Türkiyədə “Əsrin fəlakəti” adı ilə tarixə düşən zəlzələ (6 fevral 2023-cü il) bunun tipik örnəyidir. Bu və bu kimi hadisələr büdcə xərclərinin artmasına və tarazlığın pozulmasına əsas olur. Onu da vurğulayaq ki, büdcə kəsirlərinin normallığı haqqında mütəxəssislərin maraqlı və həm də reallığı əks etdirən qənaətləri vardır. Bu həmin nisbətin 3-4 % faiz olması həddində özünü göstərirsə normal hesab olunur.

## Nəticə

Ümumiyyətlə, büdcə kəsirləri ölkə iqtisadiyyatının vəziyyəti ilə faktlaşmaqla özünü göstərir. İqtisadiyyatda baş verən dəyişikliklər, məsələn, artma və azalmalar bu

prosesin ümumi mənzərəsini sərgiləyir. Böhran şəraiti kəsrlərin yaranmasını qaçılmaz edir. Buna bir nümunə göstərək ki, belə bir vəziyyətdə müəssisələrin bağlanması qaçılmazdır. Prosesin belə dalğavariliyi büdcəyə daxilolmalara təsirdə görünməklə işsizliyin yaranmasına gətirib çıxarır və əlavə xərclər məsələsi ortaya çıxır. Ümumdünya xərcləri məsələsi isə tamamilə başqa tiplidi və bütün vəziyyətlərdən kənar olaraq həmin xərclər eynilə qalır. İqtisadiyyatın müəyyən sahələrini inkişaf etdirmək üçün xərclərin artması mənfi hal kimi qiymətləndirilmir və bu əksinə müsbət tərəf kimi diqqət mərkəzində saxlanır. Bütün bunlar büdcə-pul siyasətinin ümumi məzmununu və iqtisadi inkişafın təsir mexanizmini əhatələyir.

## ƏDƏBİYYAT


1. Alıyev X. Büdcə siyasətinin effektivliyinin ekonomik təhlili. (fəlsəfə doktorluğu dissertasiyasının avtoreferatı). Bakı: İqtisadi İslahatlar Elmi-tədqiqat İnstitutu, 2017, 25 s.
2. Ələkbərov Ə. Sosial iqtisadi inkişafın maliyyə-büdcə tənzimlənməsi problemləri. (iqtisadiyyat elmləri doktoru dissertasiyası). Bakı: AMEA İqtisad institutu, 2007, 343 s.
3. Əliyev R. İqtisadi təhlükəsizliyin təmin olunmasında pul-kredit sisteminin rolu və onun təkmilləşdirilməsi (iqtisadiyyat üzrə fəlsəfə doktoru dissertasiyası). Bakı: AMEA İqtisad İnstitutu, 2010, 156 s.
4. Əliyeva T. Dövlət büdcəsi gəlirlərinin formalaşması və idarə edilməsinin təkmilləşdirilməsi. (iqtisadiyyat üzrə fəlsəfə doktoru dissertasiyası). Bakı: Azərbaycan Dövlət İqtisad İnstitutu, 2011, 169 s.
5. İqtisadi nəzəriyyə. Bakı: Çaşıoğlu, 2001, 692 s.
6. Muradov R. Büdcə prosesinin təkmilləşdirilməsinin nəzəri-metodoloji əsasları. (iqtisadiyyat üzrə fəlsəfə doktoru dissertasiyası). Bakı: İdarəetmə Akademiyası, 2016, 160 s.
7. Vəliyev Z. Dövlət büdcəsi. Bakı: Ziya, 2006, 216 s.
8. Бабоев М., Мамбеталиев Н., Тютюрюков Н. Налоги и налогообложение в СНГ .//Учебные пособие. Москва: Финансы и статистика, 2004, 424 с.
9. Брайчева Т. Государственные финансы. СПб: Питер, 2011, 288 с.
10. Ведута Е. Государственные экономические стратегии. Москва: ИНФРА-М,1998, 327 с.
11. Городецкий Д. Концепция бюджетной сбалансированности. Москва, 2003, 168 с.
12. Забородина В. Финансы (учебник). Москва: Изд-во Финансы и статистика, 2019, 396 с.
13. Караваева И. Приориетные направления налоговых реформ в рыночной экономике второй половины XX века. Москва: Изд-во ИЭ РАН, 1998, 182 с.
14. Налоговые системы зарубежных стран: учебник для вузов. 2 е изд., Москва: Закон и права, ЮНИТИ, 1997, 191 с.


***Резюме***

***Нурлана Аллахманлы***

***Содержание денежно-бюджетной политики, механизм влияния на экономическое развитие***

Одной из проблем, требующих выяснения при взаимодействии денежно-кредитной и бюджетной политики государства, является системное изучение содержания процесса и его влияния на экономическое развитие. Как известно, реализация экономических задач государства и разработка правильных, успешных механизмов характеризуются тем, что они материально привязаны к государственному бюджету. Поэтому различные видные представители теоретической точки зрения, например, кейнсианская экономическая школа, проявляя чувствительность к изменению уровня налогов государства, отмечают, что это изменение, несомненно, оказывает свое

влияние на спрос и экономическую активность. Об этом свидетельствуют изменения в налоговой политике Азербайджанской Республики после обретения независимости. Добавим, что это делается для стабилизации экономики. Основным инструментом фискальной политики являются налоги и государственные расходы, и их влияние на макроэкономические показатели четко прослеживается в изменениях.

В экономических отношениях на первый план выходят финансовые отношения, обладающие исключительной функциональностью. Работа государственного бюджета, государственной финансовой отчетности характеризуется проявлением общего спектра процесса. Государство выполняет свои обязанности во всех сферах, а это экономическая, политическая, социальная, культурная и т.д. реализуется с ориентацией. Поэтому содержание денежно-бюджетной политики коренится в устранении экономических проблем и сохранении динамики развития. В целом финансовая система сама по себе является совершенным механизмом, и ее работа зависит от правильного направления этого процесса.

Финансы предприятий, администраций и организаций, страховые финансы, финансы кредитной системы и то многообразие, которое лежит в их основе, – все это выражается в функционировании денежной и бюджетной политики. Потому что выполнение любой работы на всех уровнях и в любых условиях считается финансовой возможностью. На личном уровне, на местном уровне, на региональном уровне и вообще на государственном уровне они все проявляются, соединяясь с одной и той же идеей.

***Ключевые слова:*** Государственный бюджет, государственные финансы, деньги, страхование, кредит, доходы, расходы

***Summary***

***Nurlana Allahmanlı***

***Content of Monetary-Budgetary Polıcy, Influence Mechanısm on Economıc Development***

One of the problems to be clarified in the interaction of the state's monetary and budget policy is the systematic study of the content of the process and its impact on economic development. As it is known, the realization of the state's economic tasks and the development of correct, successful mechanisms are characterized by the fact that it is tied to the state budget in terms of material basis. In economic relations, financial relations come to the fore with exceptional functionality. The operation of the state budget, state finance statements is characterized by exhibiting the general spectrum of the process.

The state fulfills its duties in all spheres, and this is economic, political, social, cultural, etc. is realized with orientation. Therefore, the content of the monetary-budget policy is rooted in the elimination of economic problems and preservation of the dynamics of development. In general, the financial system is a perfect mechanism in itself, and its operation depends on the correct direction of the process.

The finance of enterprises, administrations and organizations, insurance finance, finance of the credit system and the diversity that stands at the bottom of it all express themselves in the functioning of money and budget policy. Because doing any work at all levels and conditions is considered a financial possibility. At the personal level, at the local level, at the regional level, and generally at the state level, they all manifest themselves by connecting to the same idea.

**Key words:** *State budget, state finance, money, insurance, credit, income, expenses, etc.*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Həsənli Yadulla Həmdulla oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.